**Hüseynbala Mirələmov**

# QARINQULU

Zəminə Zamini yüngülcə silkələdi:

– Qalx, işə gecikirsən...

Zamin yuxudan doymasa da, bilirdi ki, işə vaxtında getməlidir. Birdən, Allah göstərməsin, müdir, ya da müavin gecikdiyini bilsə... onda, eşşək gətir, mərəkə yüklə... Ancaq indi, bax, bu anda onun yatmaq həvəsi o qədər güclü idi ki, az qalırdı, işə gecikmək qorxusunu açıq-aşkar üstələsin. O, "bir az da yatım" deyə yuxuya getmək istəyirdi ki, zehninin lap alt qatlarından doğma bir hiss keçdi: "onu yemək gözləyir". Yemək... bu elə güclü bir istək, elə güclü bir ehtiras idi ki, cəmi bir neçə an sonra Zamin artıq çarpayıda oturub, məğlub etdiyi yuxusunun son inadının qırılmasını gözləyirdi.

– Zəminə!

Zəminə mətbəxdən səsləndi:

– Nədi?

–Yemək hazırdı?

– Sən yuyunub qurtarana kimi hazır olacaq.

Zamin soruşmaq istədi ki, nə yeyəcək və həmin andaca yadına düşdü ki, hələ dünən şam yeməyini yeyərkən bunu arvadından soruşub: "altı yumurta, yüz qram yağ, şirin çay, əlli qram holland pendiri, bir stəkan da süzmə..."

Çox şən bir əhval-ruhiyyə ilə paltarını geyinirdi ki, birdən, elə bil, qəflətən üstünə bir vedrə su tökdülər. Öz-özünə sual verdi: "Bəs, günorta nə yeyəcək?" tez də cavabını tapdı: "Günorta idarənin problemidir!".

O:

– Zəminə, - deyə heybətli səslə çağırdı. – Bəs, axşama nə olacaq?

Zəminə sözləri uzada-uzada cavab verdi:

– Axşama? Küftə...

Zaminin Zəminəni axıra qədər dinləməyə səbri çatmadı:

– Bəs sonra?

– Daha nə sonra? Küftə, yanında da kotlet olmayacaq ki?

Zamin hirslə, az qala bağırdı:

– Necə olmayacaq? Üç-dörd dənə də kotlet eləyərsən. Küftə də iki dənə olsun. Eşitdin?

– Ətdən sonra yenə ət?

Bunu eşidən kimi Zamin fınxırdı.

– Yaxşı, yaxşı, - deyə Zəminə süfrəni hazırlaya-hazırlaya onu sakitləşdirməyə çalışdı. – Kotlet də bişirərəm.

Zamin stol arxasında əyləşib yağdan, pendirdən, yumurtadan, süzmədən yeyirdi. Ancaq günorta, nahar vaxtı kimə qonaq olacağını gecə yatmamışdan əvvəl fikirləşdiyinə görə yeməkdən o qədər də ləzzət ala bilmirdi.Gələcək bir yeməyin qeyri-müəyyənliyi, həmişə olduğu kimi, onun intizarla gözlədiyi bu xoş anların dadını qaçırırdı. O, stəkanı birnəfəsə yarı edib düşündü: "Bəs bu gün kimin qulağını kəsim? Səlimin pulu olsa da, quyuruq ələ verən deyil. Vəli hədsiz dərəcədə xəsisdir. Henrix məndən də iştahalıdır, özü də əsrin əvvəllərində babasının macəra arxasınca Azərbaycana gəlməsindən danışa-danışa qəpiklərini hesablayacaq, and-aman edəcək ki, ondan artıq pulu yoxdur. Zehtabidən uzağı bir yumurta qoparmaq olar. Andına da ki, söz yox: seyid babasının cəddindən tutmuş peyğəmbəri, imamı çəkəcək ortalığa, ayaqüstü namaz qılırmış kimi qoşa əllərini açaraq göyə... Hə, yenə cavanlar yaxşıdır, qonaqlıq vermək ürəklərindən olmasa da, etiraz etməyə üzləri gəlmir".

Ağlına gələn bu fikirdən sonra ürəyi bir az sakitləşdi və süfrəni yığışdırmağa gələn arvadının ətli sifətinə çırtma vurub bərkdən dedi: – Amma yaxşı olar ki, bu barədə bilavasitə işdə qərar çıxarım. Hər halda, mənim pəncəmə keçən canını çətin qurtarar, istər gənc olsun, istər qoca...

Arvadının başını yırğalamasına heç bir əhəmiyyət vermədən şlyapasını yarıdaz başına qoyub evdən çıxdı.

Yenə də naharda nə yeyəcəyi barədə fikirləşə-fikirləşə düz evlərinin tinindəki avtobus dayanacağında xeyli gözlədi. Yavaş-yavaş narahat olmağa başlayırdı ki, avtobus gəldi. Arxa qapıdan minib, qabaq yerlərdən birində əyləşdi və o saat da gözləri sürücünün sağ tərəfində asılmış kağızın üstündəki kolbasa

dilimlərinə sataşdı... “Kolbasa... Əcəb yeməli şeydir... Hələ yanında bir alma da var...”

O, baxmaq üçün bundan gözəl mənzərə tapmadığına görə, iş yerinə çatana qədər gözlərini almadan və kolbasa dilimlərindən çəkmədi.

Dayanacaqdan idarəyə xeyli yol idi. Bu yolu başa vurmaq üçün bir həftə bundan əvvəl dostlarından birinin ad günündə parkda verdiyi qonaqlığı təfərrüatı ilə yadına salmağa başladı: “Bəh, bəh, süfrə nə süfrə! O gün texniki şöbənin müdiri Mahmudla görüm nə qədər yedik? Hə, səkkiz lülə, dörd böyrək, dörd ciyər, dörd də ürək. Dörd şüşə araq... Bəh, bəh... Hə, üç dənə də dağlı çörəyi”.

Kimsə onun qoluna toxundu:

– Salam, Zamin müəllim.

– Salam...

Elə bil onu söydülər. “Mərdimazar oğlu mərdimazar” gör nə cür yeməklərdən ayırdı... Heyif...

***

...Nahar yeməyinə bir az qalmış qonşu şöbədə işləyən arıq, uzunsifət oğlan gəlib ona dərin hüznlə başsağlığı verdi. Zaminin indi yadına düşdü ki, bir həftə bundan əvvəl qaynı rəhmətə gedib. O, arıq, uzunsifət oğlana razılıq edib dedi:

– Hə, belə olan surətdə bu kədərli əhvalatı unutmaq üçün mənim gənc dostum məni günorta yeməyinə qonaq etsəydi, pis olmazdı...

Arıq, uzunsifət oğlan özünü elə apardı ki, guya, heç nə eşitmədi. Zamin həmin andaca hiss etdi ki, yox, bu gənc o biri gənclərdən deyil. Xırda, qıyıq gozlərindən hiss olunur ki, xəsisin biridir. Beləsinə bir az da üz vursan, allah bilir, nə hoqqadan çıxar...

***

Ey dadi-bidad, indi ləziz xörəklər – bozartma, cızbız artıq buğlana-buğlana qablara tökülür. Birdən qurtarar ha! Bozartma lap əladır. Sümüyünü iliyinə kimi sümürürsən, bəs, indi mən kimə ilişim? Yaxşı, gedim, bəlkə yeməkxanada bir adam tapdım. Bəlkə heç üzümə baxan olmadı? Yanaşıb təklifsiz-filansız süfrədə

otursam necə? Yox, sözsüz ki, təklif edəcəklər. Ancaq elə-belə, xala-xətrin qalmasın. Mənə də elə bu lazımdı, yeməyə girişərəm. Ancaq burası var ki, onda, gərək kiminsə yeməyinə şərik olam. Yox, bu plandan vaz keçməliyəm...

O, təsərrüfat şöbəsinin dəhlizində ayaq saxladı. İçəridən domino səsi gəlirdi. Aha, bunlardan birinə ilişə bilərəm. Məliki zorla da olsa, aparmaq mümkündür, amma çay alar, öldürsən də yemək almaz, çünki özü yeməyini evdən gətirir, buna görə də heç kimi qonaq eləmir. Salmanı apara bilsəm, bəlkə də bir şey alar... Ancaq zalım oğlu dominonun dəlisidir, çətin ki, onu oyundan ayırmaq mümkün olsun. Biri də Bəşirdir ki, özü də, mənim kimi, hərif axtarır. Biri də Orucdur, ömründə nahar eləməz. Siqaret nə qədər istəsən, verər, ancaq nataraz oğlu natarazın yemək almaqla arası yoxdur ki, yoxdur.

Bəs Saday – təchizat şöbəsinin ekspediteli hanı? Yəqin radioda siyasi icmala qulaq asır. Əfqanıstan belə getdi, Çili elə getdi... Çexoslovakiya hadisələrinin təsiri şüurlardan silinməyib. İranda qarmaqarışıqlıqdır. Yaxın Şərq... Gəlib çərənləyəcək ki, xalqlar azadlıq istəyir... Əbləh oğlu əbləh... Şirniyyatla təzədəm çayını iç də... Sadayın pıqhapıq qaynayan elektrik samovarı gözünün qabağına gəldi.

...Xörəklərin yağlı yerləri qablara çəkilir, mən də qalmışam burda. Ay dadi-bidad, deyəsən, yenə axırda kefir-çörək yeməli olacağam.

– Salam, Zamin, fasilə vaxtı dəhlizlə nə var-gəl eləyirsən?

...Aha, Atamoğlandır, getməyinə gedəcək, amma nə alsa, özünə alacaq və yanında oturub, yeyə-yeyə üzünə baxıb hələ bir əhvalat da danışacaq...

Hərçibada-bad, girişəcəyəm, nə çıxar-çıxar...

– Əşşi, səndən nə gizlədim, tezdən işə gələndə kostyumumu dəyişdim. İndi burda əlimi cibimə salıb görürəm ki...

Atamoğlan birdən:

– Zamin, bağışla, məni aşağıda gözləyirlər, sonra gələrəm danışarsan, - deyib sürətlə uzaqlaşdı.

Atamoğlanın bu hərəkəti o qədər qəfil və gözlənilməz oldu ki, Zaminin sözü ağ zında qaldı.

Mənə kələk gəldi. Sözümü qurtarmamış mətləbimi anladı. Gor necə əkildi... Ey dadi-bidad, bozartma yəqin ki, qurtardı, qaldı kotletlə bitoçka... Hə, bir də kələm dolması... A kişi, belə də zülm olar, bu cür xörəklər ola-ola, kefirlə çörək yeyəsən.

Vaxt keçir, ancaq heç kim gözə dəymirdi. Gərək arvaddan ehtiyat üçün bir-iki manat alaydım. Əşşi, bu nə həyatdır? Gedib “İnturist”də dördulduz konyakla dörd-beş asetrin yeməyəsən – göyərtisiynən, salatıynan, meyvəsiynən...

Dadlı xəyallarla otağına girdi. Radioda siyasi icmal qurtarmışdı. İndi də hansısa bəstəkarın sonatası verilirdi. Zamin əsəbi halda radionun səsini kəsib, pəncərənin önünə gəldi. Dilxor halda çölə baxmağa başladı. Telefon səsi onu yalnız ac vaxtlarında çulğayan qəmli düşüncələrdən ayırdı. Dəstəyi götürdü:

– Bəli, eşidirəm.

– Kitab mağazasından danışırlar. Sizdən kimsə zəng vurub, xahiş edib ki, mağaza mal alanda ona xəbər verək.

– Xeyr, bizdə kitabla maraqlanan adam yoxdur.

Zəng edən israr eləyəndə Zamin səsini qaldırdı:

– Yox, yox, canım! Bizim öz dərdimiz var!

Zamin az qaldı ki, telefonun dəstəyini yerə çırpsın:

– Əbləh oğlu... Bir xeyirli adam zəng vurmaz ki...

Sonra, elə bil, birdən-birə ayıldı: “Yox, belə getsə, kefir-çörək yeməkdən də məhrum olaram”.

Qalxıb yenə dəhlizə çıxdı və qapının ağzında əsaslı tikinti şöbəsinin bir dəstə əməkdaşı ilə üz-üzə gəldi. Onlardan biri – Elmira xanım Zaminin ürəyindən keçənləri oxumuş kimi gülə-gülə:

– Zamin müəllim, gedək çörək yeyək, - dedi.

Zaminin, elə bil, çiçəyi çırtladı. – Gənc dostlarımla, - o əlini-əlinə sürtdü – lap dünyanın o başına gedərəm, - dedi. – Həmin an yeməkxananın bütün xörəkləri xəyalında canlandı: yağlı, sümüklü mal ətindən bozartma, yumurtalı bitoçka, makaron, kotlet, kələm dolması və bunlardan heç biri olmasa, kefirlə çörək. Görəsən, ona hansı xörək qismət olacaq?..

Əsaslı tikinti şöbəsinin əməkdaşları ilə deyib-gülsə də, ürəyi bozartmanın yanında idi. Onlar yeməkxanaya girəndə yeyib-içməyin qızğın çağı idi.Zaminin miokard-infarkt keçirən ürəyi sancdı. Vəli də, Henrix də, Zehtabi də bozartma yeyirdilər.

Kassaya sarı gedən Elmira xanım incə səslə soruşdu:

– Zamin müəllim, nə yeyirsiniz?

– Əşşi, nə olsa, elə lap bozartma...

Zamin stollara göz gəzdirdi. Səlim tanımadığı adamla bozartma yeyirdi: “Gör zalım oğlunun bəxtinə nə boyda ət düşüb? Yəqin yanındakı adam qonaq eləyib. İndi mənim bəxtimə lap şıntır düşəcək...”

İki stol o yanda Vəli ilə Henrix üz-üzə oturmuşdular. Bozartmanın axırına çıxıb, indi də nə haqdasa xısın-xısın danışırdılar. “Görəsən, nə pıçıldaşırlar? Zeytabi hardadır? Yəqin ki, hansısa restoranda kef eləyir. Bəlkə də çimərlikdə toyuq kababı yeyir ”.

– Zamin müəllim, icazə verin...

Zamin sevincək halda stulunu geri çəkdi və Elmira xanımın nimçədə gətirdiyi iki kiçik kotleti görəndə bərk dilxor oldu. Bu acı hiss cəmi bir neçə saniyə davam etdi. Çünki, hər nə də olsa, onun qabağında yemək vardı.

Zamin yeyə-yeyə yaxşı yemək yediyi günləri xatırlayırdı. Keçən yayda rayondakı qonaqlıq yadına düşdü. Bəh-bəh... Belə qonaqlıq çətin ki, bir də ələ düşə. Süfrədə nələr yox idi? Plov bir yanda, toyuq kababı bir yanda, çığırtma bir yanda, badımcan dolması bir yanda... O vaxt normadan bir balaca çox yediyinə görə xeyli əziyyət çəkmişdi...

“Əşşi, yüz o cür əziyyətə dözərəm. Təki qarşımda elə bir süfrə açılsın”.

***

Zamin qapının zəngini üç-dörd dəfə dalbadal basdı.

Zəminə deyinə-deyinə gəldi:

– Nə olub, bir az gözlə də, qiyamət qopub?

– Sənə nə var ki? Yeməklər əlinin altında... Mənim kimi onun-bunun ümidinə qalmamısan ki...

– Ay kişi, onun-bunun ümidinə niyə qalırsan? Allaha şükür, heç kimdən az qazanmırsan, böyük bir müəssisənin məsul işçisisən, qarnına qızırğanırsan, mən nə eləyim...

– Sənə qalsa, bütün var-yoxumuzu bir ayın içində xərcləyib bizi acından qırarsan, sarsaq. Birdən sabah olmadı elə, oldu belə. Onda neyləyərsən?

Zəminə əlini ölçə-ölçə nəsə demək istəyirdi ki, Zamin gözlərini bərəltdi:

– Yeri, yeri yeməyi gətir. Səhərdən bəri heç nə yeməmişəm.

Zəminə:

– Evi yıxılmamışın oğlu, bir soyun, yuyun, sonra yemək istə də, - deyib ərinin cavabını gözləmədən mətbəxə tərəf getdi, radioda "Son xəbərlər" sözünü eşidib, ayağını sürüdü.

– Əşşi, zalımın qızı, xəbərlər Sadayla sənə qalıb? NATO qüvvələri... Yenə nə deyir?.. Məvaciblər artır, ya yox?..

Zəminə dönüb nəsə demək istədi, amma Zamin imkan vermədi:

–Yaxşı, bildim, bildim... Xörəyi gətir...

... Bir azdan Zamin yatağında uzanıb acılı-şirinli xəyallara dalmışdı.

Xəyalın acılığı ondan ibarət idi ki, qarşıda sabahın nahar problemi dururdu, şirinliyi də ondan ibarət idi ki, ümumiyyətlə, yeməklə bağlı idi və necə olur-olsun, əlbəttə ki, həll olunacaqdı...

2000